**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNIVERSITETI**

**Magistratura pilləsi üçün**

**İXTİSAS: 060112 - COĞRAFIYA MÜƏLLIMLIYI**

# İF-M100016 "COĞRAFIYA TƏDRISI METODIKASININ INKIŞAF TARIXI VƏ METODOLOGİYASI"

**fənninin**

**P R O Q R A M I**

**Bakı Dövlət Universiteti TMŞ yanında Tədris vəsaitlərinə nəşr hüququnun (qrif) verilməsi üzrə daimi fəaliyyət göstərən Komissiyanın qərarı ilə təsdiq edilmişdir ( protokol № )**

**Bakı 2016**

# COĞRAFIYA TƏDRISI METODIKASININ INKIŞAF TARIXI VƏ METODOLOGİYASI

## Izahat vərəqi

«Coğrafiya tədrisi metodikasinin inkişaf tarixi və metodologiyası» fənni "Coğrafiya müəllimliyi" istiqamətində «Coğrafiyanın tədrisi metodikası və metodologiyası» ixtisası üzrə magistratura pilləsində I kursun I semestrində 15 saat (15 saat – mühazirə) həcmində tədris edilir.

«Coğrafiya tədrisi metodikasinin inkişaf tarixi və metodologiyası» kursunun tədrisində tələbələr:

***Bilməlidir:***

- coğrafiya tədrisi metodikasının yaranma tarixini;
-coğrafiya tədrisi metodikasının məktəb coğrafiyası ilə əlaqəsini təhlil etməyi;
-coğrafiya tədrisi metodikasının baniləri və yaradıcılarının fəaliyyəti haqqında məlumatları;

***Bacarmalıdır:***

-coğrafiya tədrisi metodikası üzrə mütəxəsislərin fikirlərinə görə qruplaşdırmağı;
-coğrafiya tədrisi metodikası üzrə mövcud olan fikirləri hər hansı xüsusiyyətinə görə müqayisə etməyi.

***Yiyələnməlidir:***

-coğrafiya tədrisi metodikasinin dünyada , Rusiya və Azərbaycanda inkişaf mərhələlərində baş verən dəyişiklərə aid fikirləri təhlil etməyi;
- Coğrafiya tədrisi metodikası kursunun inkişafında rolu olan alimlərin elmi tədqiqat əsərlərində olan istiqamətləri müəyyən etməyi.

### Mövzülar üzrə saatların paylanması

| № | Mövzular | cəm | O cümlədən | |
|---|---|---|---|---|
| | | | müh. | sem. |
| 1. | Coğrafiya tədrisi metodikasının yaranması, məqsəd və vəzifələri. | 2 | 2 | |
| 2 | Qədim dövrlərdə coğrafiya tədrisi metodikasının inkişaf xüsusiyyətləri | 2 | 2 | |
| 3. | Orta əsrlərdə coğrafiya tədrisi metodikasının inkişaf xüsusiyyətləri | 2 | 2 | |
| 4 | Müasir dövrdə coğrafiyanın tədrisi metodikasının əsas istiqamətləri | 2 | 2 | |
| 5 | CTM-in metodologiyası və metodları. | 2 | 2 | |
| 6 | Azərbaycanda məktəb coğrafiyasının inkişaf tarixi. | 2 | 2 | |
| 7 | Coğrafiya fənninin tədrisində yeni konsepsiyanın | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | hazırlanması | | | |
| 8 | Kurikulum islahatı | 1 | 1 | |
| | Cəmi | 15 | 15 | |

1.**Coğrafiya tədrisi metodikasinin yaranması, məqsəd və vəzifələri.** Coğrafiya tədrisi metodikasinin yaranması və onun məktəb coğrafiyası ilə əlaqəsinin təhlili. Coğrafiya tədrisi metodikasının inkişaf tarixi və metodologiyası kursunun tədrisinin əhəmiyyəti, ona verilən tələblər, kursun məqsəd və məzmunu (1), (3), (8).

2. **Qədim dövrlərdə coğrafiya tədrisi metodikasının inkişaf xüsusiyyətləri**. Antik coğrafiyaçıların elmin inkişafında rolu. Coğrafiya fənninin tədrisinin tarixi. İlkin coğrafi biliklərin əfsanə, sadə rəsm və "xəritələrdə" əks olunması. Qədim farslarda coğrafiyaya aid qiymətli mənbələr. Şumerlərin Yer haqqında təsəvvürləri. Gil kitabələrdə Yerin təsviri. Finikiyalıların dəniz əməliyyatları. Karfagenin sərhədləri. Misirdə səyyahların coğrafi bilikləri toplaması. Qədim Çində ipək parça üzərində çəkilən xəritələr. Qədim dövrün Avropa məktəblərində coğrafiyanın öyrənilməsinin önə çəkilməsi. Heradot, Aristotel, Makedoniyalı İsgəndər, Eratosfen, K.Ptolomey, Hipokratın coğrafi baxışları. Normanların coğrafi təsəvvürləri (1), (4), (8).

3. **Orta əsrlərdə coğrafiya tədrisi metodikasının inkişaf xüsusiyyətləri**. Böyük tarixi-coğrafi kəşflərin coğrafiyanın inkişaf etdirilməsində rolu. Ərəblərdə coğrafiyanın inkişaf etdirilməsi. Kosma İndikoplonun əsərlərinin elmi əhəmiyyəti. Əl-Həmadaninin (X əsr) "Ərəbistanın təsviri" əsərinin tədrisi. Əl- İdrisinin tərtib etdiyi xəritə və atlaslar. Əl-Balxın ilk izahlı atlası. İbn Bətutənin səyahəti.

Coğrafiya fənninin tədrisinin banisi. Y.A.Kamenskininin coğrafi fikirləri. Ətraf mühiti müşahidə etməklə fənnin öyrənilməsi. Hollandiyalı coğrafiyaşunas Hehandrın yazdığı "Pedaqoji düşüncülər" adlı ilk pedaqoji –metodik əsər.

Rusiya məktəblərində coğrafiyanın tədrisi tarixi. İlk coğrafiya dərslikləri. K.D.Uşinskinin məktəb coğrafiyasında etdiyi dəyişikliklər. V.Tatişevin coğrafiya fənninin tədrisindəki rolu. İlk məktəb atlaslarının hazılanması. Sovet dövrünün coğrafiyasında aparılan islahatlar (1), (3), (4), (8).

4. **Müasir dövrdə coğrafiyanın tədrisi metodikasının əsas istiqamətləri.** (XIX əsrin sonu- XX əsr) Müasir coğrafiyanın təlimi metodikasının tədqiq etdiyi problemlər: Məktəbdə coğrafiyanın təhsil –tərbiyə vəzifələri. Məktəb coğrafiyasının məzmunu. Müəllimin təlim fəaliyyəti. Şagirdin öyrənməsi. Coğrafiyanın təlim prosesində şagirdlərin tərbiyəsi və inkişafı.

Coğrafiya dərsliklərinin tərtib edilməsi: A.Borzov, Q.İvanov, N.Baranskinin, D.Anuçinin, V. Maksokovskinin xidmətləri. Coğrafiya müəllimlərinin qurultayları (1), (4), (5), (7).

5.**CTM-in metodologiyası və metodları.** CTM –in nəzəri-metodoloji və metodiki əsasları. Elmi təlim, konsepsiya, nəzəriyyə, fərziyyə və onların mahiyyəti. Coğrafiya təlimində ənənəvi metodlar. Yeni tədqiqat metodlarının yaranması. Fiziki coğrafiyanın metodikasının əsas xüsusiyyətləri. İqtisadi coğrafiyanın metodikasının məzmunu. Təlim strategiyalarının təqdiq edən tədqiqatçılar. Kennis Mur, Bencamin Blum, D. Krasvol və digərlərinin elmi-pedaqoji baxışlarının yayılması (2), (3), (5), (6), (7). (8).

6. **Azərbaycanda məktəb coğrafiyasının inkişaf tarixi**. Azərbaycanda coğrafiya elminin inkişafı. N.Tusinin yaratdığı elmi mərkəz. Ə.R.Biruni, Ə.R.Bəkuvinin pedaqoji

fikirləri. Azərbaycanda coğrafiya tədrisi metodikasının inkişafının Rusiya ilə bağlılığı. H.Z.Şirvanının coğrafiya elminə verdiyi töhvələr. A.A.Bakıxanovun səyahətləri. H.Zərdabinin xidmətləri. Q.R.Mirzəzadənin 1911 və 1916-cı illərdə yazdığı "Ümumi coğrafiya" dərslikləri.
Azərbaycanda sovet hakimiyyətin qurulması. Q.R.Mirzəzadənin 1921-ci ildə yazdığı" Azərbaycan coğrafiyası" tədris vəsaiti. Azərbaycanda sovet məktəb coğrafiyasının inkişafı: M.Vəliyev(Baharlı), Y.V.Çəmənzəminli, F.Rzabəyli, V.Axundov.
İlk coğrafiyaçı kadrların hazırlanması. Ali məktəblərdə coğrafiyaçı kadrların hazırlanması. Azərbaycanda məktəb coğrafiyasının inkişafı ikinci dünya müharibəsi illərində. 1950-ci illərdə Azərbaycan Respublikasının coğrafiyasının tədrisi. 1960-92-ci illərin ümumtəhsil məktəblərinin tədris planlarında Azərbaycan coğrafiasının yeri. Müstəqillik illərində Azərbaycanda məktəb coğrafiyasının məzmunu və quruluşundakı dəyişikliklər. "Tarix, ictimaiyyət coğrafiya tədrisi" jurnalı. Azərbaycanda orta məktəb coğrafiya dərsliklərinin yazılması. Əyani vəsaitlərin hazırlanması. Coğrafiyanın xəritələrlə təhciz edilməsi. Ali məktəb coğrafiya dərslikləri. Dərs vəsaitləri və metodik tövsiyyələr. Türk xalqlarının coğrafi kəşflərivə Türk xalqlarının yayıldığı ərazilərin coğrafiyasının alimlər tərəfindən yazıya alınması. Türk mənşəli coğrafi adlar. Mete xan, Atilla, Çingiz xanın sərkərdəliyi altında ərazilərin zəbt olunması. Əl Xarəzminin coğrafiyaya aid əsərləri. Mahmud Kaşğarinin coğraya elminə verdiyi töhvələr: "Divani-lüğət it –türk" əsəri (1), (4).
7. **Coğrafiya fənninin tədrisində yeni konsepsiyanın hazırlanması.** Milli kurikulumun qəbul edilməsi. Kurikulumda əsas ideyaların seçilməsi. Milli məsləhətçilər. Azərbaycanda kuriklum üzrə mütəxəssis hazırlığı. Coğrafiya kurikulumunun mahiyyəti. Fasiləsiz təhsil sistemində coğrafiya fənninin təkmilləşdirilməsi. Coğrafiyanın məzmununun müəyyən edilməsi. Kurikuluma uyğun dərsliklər, müəllim üçün vəsait və şagirdlər üçün iş dəftərlərinin hazırlanması. Dərslik və vəsaitlərin qiymətləndirilməsi işinin təşkili (1), (2), (4), (5), (7), (8).
8**. Kurikulum islahatı**. Kurikulum islahatının həyata keçirilməsi. Coğrafiya kurikulumunun mətbuatda işıqlandırılması. Tədris sahəsində gələcək üçün başlıca məqsədlər: ali və orta məktəb coğrafiya məzmununda elmi-metodik prinsipləri işləmək, yeni metodika və tədris vəsaitlərinin hazırlamaq, coğrafiya təhsil sistemini dünya standartlarına uyğunlaşdırmaq (6), (7), (8).

## Ədəbiyyat

**Əsas**

1. Seyfullayeva N.S, Coğrafiyanın tədrisi metodikası, Ali məktəb üçün dərslik. Bakı. "EMK" nəşriyyatı 2001. 489 s.
2. Bibikin A.J, Gerasimova T.P, Darinski A.B.və başqaları. " Orta məktəbdə coğrafiya təliminin metodikası" Bakı. Maarif nəşriyyatı 1973. 423s.
3. Seyfullayeva N.S, Rakçiyeva İ.F, Şabanova Y.Ə. "Coğrafiya" Müəllim üçün vəsait. VI sinif üçün. Bakı nəşriyyatı. 2013, 160 s.
4. Həsənov T.G. Coğrafiya tarixi. Ali məktəblər üçün dərslik. Bakı. "Çaşıoğlu" nəşriyyatı 2001. 94 s.

**Əlavə**

5. Veysova Z. A. Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə "Ümummi orta təhsil səviyyəsi üçün yeni fənn kurikulumlarının tətbiqi Coğrafiya fənni üzrə təlimçilər üçün vəsait "İnkişaf" elmi mərkəzi, 2014, 168 s.
6. Süleymanova A.Y, Təhsilin əsasları, Dərs vəsaiti Bakı "Təhsil" nəşriyyatı , 2014, 399 s.

7.  “Kurikulum” Elmi-metodik jurnalları.  Müxtəlif illər, 52 s.
8. www. Kurikulum.az